

Bazaya meyvə-tərəvəz gətirən azərbaycanlı: “500 min ABŞ dolları dəyərində malım tələf olub gedir. İndi də xəbər verdilər ki, skinhedlər bura hücuma hazırlaşır. Qalmışıq pis vəziyyətdə!”

Bir qrup rus milliyətçisi “skinhed”lər bu satlarda Moskvanın Qərbi Biryulevo rayonunda yerləşən “Pokrov” meyvə-tərəvəz bazasına hücum etməyə hazırlaşır. Bu barədə APA-nın Moskva müxbirinə paytaxtın “Prajskiy” metrosu yaxınlığında yaşayan həmyerlilərimiz bildirib. Onların sözlərinə görə, bir qrup “skinhed” Prajski metrosu tərəfdən Qərbi Biryulevo rayonunda yerləşən “Pokrov” bazasına yürüş etməyə hazırlaşır. Həmyerlilərimizin bildirdiklərinə görə, skinhedlərin əksəriyyəti alkoqollu içki qəbul ediblər.

Qeyd edək ki, oktyabrın 13-də Qərbi Biyulevo rayonunda baş verən iğtişaşlardan sonra minlərlə azərbaycanlının çalışdığı “Pokrov” bazası bağlı elan olunub. “Rospotrebnadzor” bazanın bağlanması iddiası ilə məhkəməyə müraciət edib. Bazanın bağlanması yüzlərlə azərbaycanlının bazara satmaq üçün gətirdiyi məhsulun xarab olması təhlükəsi ilə üz-üzə qoyub.